Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

# XOCAVƏND

№ 08 (72) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti 10 noyabr - 05 dekabr 2016-cı il



## Prezident İlham Əliyev ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olub

Noyabrın 12-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olub.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Ali Baş Komandan İlham Əliyev komanda idarəetmə məntəqəsindən düşmənin mövqelərini izlədi.

Dövlət başçısına cəbhə xəttində ümumi vəziyyətlə bağlı məruzə edildi.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev döyüş tapşırığını yerinə yetirərkən xüsusi fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.

Dövlət başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir.

Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir.

Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi - tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq.

Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır.

Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuzun maddi-texniki təminatı ilə bağlı əlavə tədbirlər görülür, vəsait ayrılıb, ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlar, texnika alınır və artıq bizim sərəncamımızdadır.

Ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi.

1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq.

Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü Ordumuz var. Biz Ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik! Sağ olun.

* * *

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

## Prezident İlham Əliyev Tərtər rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür

3 dekabr 2016-cı il tarixdə Tərtər rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı aşağıdakı fikirləri səsləndirmişdir:



- Aprel döyüşləri ümumiyyətlə bizim şanlı tariximizdir. Azərbaycan Ordusu da, Azərbaycan vətəndaşı da qəhrəmanlıq göstərmişdir. Ordumuz düşmənin hücumuna cavab olaraq hərbi qələbə qazanmışdır. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı keçirərək həm bu istiqamətdə, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində - indiki Ağdərə rayonunda, eyni zamanda, Cəbrayıl, Füzuli istiqamətlərində böyük ərazini işğalçılardan azad etmişdir. Ermənilərin uzun illər öz ordusu haqqında yaydıqları mif darmadağın edildi. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kim nəyə qadirdir. Ermənilər əlverişli mövqelərini tərk edərək, qorxudan qaçıb gizlənmişdilər. Onların kəndlərində yaşayan insanların sayı getdikcə azalır. Ancaq Tərtərdə, Ağdamda bir nəfər belə yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır. Bu, bir daha xalqımızın ucalığını göstərir. Xüsusilə Tərtər sakinlərinin belə davranışı, hərəkəti, hər bir vətəndaş üçün nümunə olmalıdır. İndi siz burada, düşmənlə üz-üzə, ön cəbhədə nəinki yaşayırsınız, yaradırsınız, qurursunuz və əminsiniz ki, Azərbaycan dövləti və Azərbaycan Ordusu sizin təhlükəsizliyinizi təmin edir.

Bir daha demək istəyirəm ki, aprel döyüşləri tarixi hadisədir. Azərbaycan bu döyüşlərdə nəinki öz gücünü göstərdi, düşmənə və dünyaya bir daha sübut etdi ki, biz indiki vəziyyətlə heç vaxt barışmayacağıq. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Şuşa da, Xankəndi də, hələ ki, işğal altında qalan digər bütün torpaqlar da. Bizim tarixi coğrafiyamız çox geniş olub. Tarixçilər son vaxtlar bu barədə yaxşı elmi əsərlər, kitablar yazırlar. Onu da qeyd etməliyəm ki, bu məsələlər mənim tövsiyəmlə öz həllini tapır. Misal üçün, İrəvan xanlığı haqqında çox böyük elmi əsər yaradılmışdır. Bu əsər bir neçə dilə tərcümə edilmişdir ki, həm Azərbaycan vətəndaşları bunu bir daha bilsinlər və dünya da bilsin ki, İrəvan bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində İrəvanın əhalisinin 70 faizi azərbaycanlılar idi. Göyçə, Zəngəzur bizim tarixi torpaqlarımızdır.

Bunu artıq XX əsrin tarixi də göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin demək olar ki, birinci qərarı, - əfsuslar olsun ki, belə bir qərar verildi, - ondan ibarət idi ki, İrəvanı Ermənistana hədiyyə edək. Bu, çox böyük səhv, böyük cinayət idi. Bilirsiniz, Xalq Cümhuriyyətinin mövcudluğu bizim qürur mənbəyimizdir. Müsəlman aləmində ilk dəfə demokratik respublika yaranmışdır və yaxşı da işlər görülmüşdür. Amma biz gərək tarixi olduğu kimi biləк və insanlar da bilsinlər. İrəvanı Ermənistana vermək tarixi cinayət idi. Çünki öz doğma torpağını verdilər.

Bu gün bizim indiki Ermənistan Respublikasının torpağında gözümüz yoxdur. Biz nə İrəvanı, nə Mehrini, nə Gorusu hərbi yolla qaytarmaq fikrində deyilik. Amma mən əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq. Biz bunu ardıcıl siyasətlə, sülh yolu ilə edəcəyik. Bütün obyektiv səbəblər onu göstərir ki, o gün gələcək. Sadəcə olaraq bizim hər birimiz o günü yaxınlaşdırmalıyıq. Necə yaxınlaşdırmalıyıq? Daha da güclü olmalıyıq. Bu gün dünyada artıq beynəlxalq hüquq anlayışı demək olar ki, iflasa uğrayıb. İndi güc əsas amildir. Bu, belədir. Biz də real dünyada yaşayırıq. Ona görə daha da güclü olmalıyıq, daha güclü ordu qurmalıyıq. İqtisadiyyat daha da güclü olmalıdır, inkişaf daha da sürətlə getməlidir. Baxın, hətta böhranlı illərdə ölkə əhalisinin sayı getdikcə artır və artacaq. İndi bir-iki ilə Azərbaycan əhalisi on milyona çatacaq. Bu meyil davam edir. İndi əhali nə qədər çox artırsa, sonrakı illərdə də artım daha yüksək olacaq.

Çıxışının sonunda ölkə başçısı rayon əhalisinə uğurlar arzulayaraq demişdir:

- Cəmiyyətdə bu məsələ ilə və bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik var. Bizim uğurlu inkişafımız reallıqdır. Hətta böhranlı illərdə də bu inkişafa nail oluruq. Bizim inkişafımız bölgələrin inkişafından asılıdır. Biz bu inkişafı Tərtər rayonunun timsalında görürük. Bu gözəl nəticələr münasibətilə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## Prezident İlham Əliyev Beyləqan rayonuna gəlib



Noyabrın 12-də Prezident İlham Əliyev Füzuli rayonuna səfərini başa çatdıraraq Beyləqan rayonuna gəlib.

Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev Prezident İlham Əliyevə son vaxtlar rayonda görülən işlər, həyata keçirilən layihələr, o cümlədən abidənin yerləşdiyi Heydər Əliyev Parkında yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, burada sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıqlar salınıb.

# 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir



17 oktyabr 2016-cı il tarixdə Xocavənd rayonunun 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. İclasda hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak etmişdir. Hesabat iclasında bildirilmişdir ki, Xocavənd rayonunun azərbaycanlı əhalisi respublikanın 37 şəhər və rayonunda məskunlaşıb. Xocavəndli məcburi köçkünlər əsasən Beyləqan rayonu ərazisindəki Xocavənd, Yeni Xocavənd, Yeni Tuğ, Qaradağlı, 320 ailəlik qəsəbələrdə, Ağcabədi rayonu ərazisində salınmış yaşayış massivində yerləşiblər.

Ötən doqquz ayda Yeni Xocavənd qəsəbəsinin daxili yolları qum-çınqıl örtüyü ilə təmir olunub. Xocavənd qəsəbəsinin abadlaşdırılması və idman zalının tikintisi davam etdirilib. Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynovun məruzəsində bildirilib ki, hesabat dövründə rayonun təsərrüfatlarında 2093 baş iribuynuzlu mal-qara, 15 min 547 baş qoyun və keçi olub. Bu dövrdə 3700 sentner ət, 16 min 013 sentner süd, 495 sentner yun istehsal edilib. Rayon üzrə 5883,9 hektar buğda sahəsindən 17 min 722,14 ton, 248,51 hektar arpa sahəsindən 646,126 ton məhsul götürülüb. Bundan başqa, fermerlər tərəfindən 195,5 ton kartof, 820,6 ton tərəvəz istehsal edilib. Vurğulanıb ki, rayon məşğulluq mərkəzinə 166 nəfər işaxtaran vətəndaş müraciət edib, onlardan 90 nəfəri işlə təmin olunub. Xəzər Strateji Araşdırmalar İnstitutu tərəfindən həyata keçirilən "Qarabağ xalçaları" layihəsi çərçivəsində 320 ailəlik qəsəbədə xalçaçılıq və tikiş kursları təşkil edilib. Həmin kursların davam etdirilməsi və xalça istehsal edən sexin fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulur. İlin ötən dövründə xocavəndli məcburi köçkünlərin məskunlaşdığı 13 rayonda 31 səyyar qəbul keçirilib. 691 nəfər sakinin iştirak etdiyi görüşlərdə müxtəlif problemlərlə bağlı 51 məsələ barədə müraciətlər olunub. Qaldırılmış məsələlərin 92,2 faizi öz müsbət həllini tapıb, 7,8 faizi ilə əlaqədar izahat işləri aparılıb. Məruzə və çıxışlarda görülmüş işlərlə yanaşı, mövcud problem və çatışmazlıqlar da qeyd olunub, qarşıda duran vəzifələrdən danışılıb.



# 18 Oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə Xocavənd qəsəbəsi Rayon Mədəniyyət evində tədbir keçirilmişdir

18 Oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə Xocavənd qəsəbəsi Rayon Mədəniyyət evində tədbir keçirilmişdir. Tədbirdə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək 1990-cı illərin əvvəllərindəki ictimai-siyasi vəziyyətdən, dövlət müstəqilliyinin bərpa edilməsindən danışmışdır. Natiq bildirdi ki, Azərbaycan Respublikası Ali Soveti avqustun 30-da Müstəqillik Bəyannaməsini, oktyabrın 18-də isə Müstəqillik haqqında Konstitusiya Aktını qəbul edib. Lakin dövlət müstəqilliyinin ilk illəri xalqımız və dövlətimiz üçün keşməkeşli olub. 1991-1993-cü illərdə ölkədə daxili böhran, vətəndaş itaətsizliyi, xaos hökm sürür, seperatizm meyilləri yaranır, digər tərəfdən Qarabağda Ermənistan silahlı birləşmələri tərəfindən yaşayış məntəqələrimiz bir-birinin ardında işğal edilirdi. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkəmizdə vətəndaş müharibəsinin qarşısı alınıb, siyasi sabitlik təmin olunub, iqtisadiyyat ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyub, nizami ordu quruculuğunda, eləcə də Respublika həyatının bütün sahələrində dinamik tərəqqi təmin edilib.

Başçı diqqətə çatdırdı ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafına, qüdrətlənməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.




Tədbirdə Salakətin kənd tam orta məktəbinin şagirdləri və Kurapatkin kənd uşaq bağçasının uşaqlarının ifasında kompozisiya, eyni zamanda rayon musiqi məktəbinin kollektivi tərəfindən konsert proqramı nümayiş etdirilmişdir.

# "Bayrağım-varlığım, bəxtiyarlığım" devizli tədbir keçirilmişdir



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Xocavənd Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Xocavənd qəsəbəsindəki Dövlət Bayrağı Meydanında "Bayrağım-varlığım, bəxtiyarlığım" devizli tədbir təşkil olunub. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, millət vəkili Xanhüseyn Kazımlı, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) bir qrup əməkdaşı və Yaradıcılıq Mərkəzinin üzvləri, rayonun idarə, müəssisə, təşkilatlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri və ərazidə xidmət edən N saylı hərbi hissənin general, əsgər və zabitləri, Qarabağ müharibəsi veteranları, şəhid ailələri iştirak edib. Əvvəlcə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsi hörmət və ehtiramla yad edilib, Azərbaycanın Dövlət himni oxunub. Layihənin müəllifi, polkovnik Abdulla Qurbani tədbirdə çıxış edərək hərbi vətənpərvərlik həftəsinin həm Silahlı Qüvvələrin şəxsi heyətinin, həm də hər bir vətəndaşın Dövlət bayrağına sədaqət ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıb.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov Dövlət Bayrağı günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək Azərbaycan xalqının və dövlətinin varlığının, istiqlalının,



müstəqilliyinin rəmzi olan bayrağımızın tarixi haqqında məlumat verib. Başçı Xocavənd qəsəbəsində belə möhtəşəm tədbirin keçirilməsinin heç də təsadüfi olmadığını vurğulamışdır. O qeyd etmişdir ki, "Bayrağım-varlığım, bəxtiyarlığım" devizi ilə keçirilən hərbi-vətənpərvərlik həftəsi gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyyə olunmasına, ordu-xalq birliyinin formalaşmasına xidmət edən vacib amillərdən biridir. Millət vəkili, UNEC-in kafedra müdiri, professor Xanhüseyn Kazımlı bildirib ki, hərbi vətənpərvərlik həftəsi gənc nəslin vətənə, torpağa olan bağlılığının və bayraq sevgisinin artırılmasına xidmət edir.

Açıq səma altında Azərbaycan bayraqları sərgisi tədbir iştirakçılarının marağına səbəb olub. Sərgidə Atabəylər, Səfəvilər, Hülakilər, Ağqoyunlular, Qaraqoyunlular, Şirvanşahlar, Avşarlar, Gəncə, Bakı, İrəvan, Qarabağ, Şəki və digər xanlıqların bayraqları, həmçinin Böyük Vətən müharibəsində 77, 223, 402, 416-cı milli atıcı diviziyalarının və 1945-cilin mayında reyxstaqda dalğalanan qələbə bayrağı, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi döyüş bayraqları nümayiş etdirilib. Tədbirdə Silahlı Qüvvələrin mahnı və rəqs ansamblının, hərbi orkestrin ifasında səsləndirilən hərbi vətənpərvərlik mövzusunda mahnılar, rəqslər və marşlar tamaşaçılarda yüksək əhval-ruhiyyə yaradıb, qələbəyə inam hissini daha da artırıb.

# "Uşaq hüquqları aylığı" çərçivəsində tədbir keçirilmişdir

Xocavənd Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsi və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın birgə təşkilatçılığı ilə 28 oktyabr 2016-cı il tarixində Xocavənd rayon Salakətin kənd tam orta məktəbində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ombudsman Elmira xanım Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq 20 oktyabr - 20 noyabr tarixlərində respublikamızda keçirilən "Uşaq hüquqları aylığı" çərçivəsində uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin daha da yaxşılaşdırılması məqsədilə "Uşaqların qayğısına qalaq" devizi altında dəyirmi masa keçirildi.



Tədbirdə hər bir millətin, hər bir ölkənin ən dəyərli sərvəti olan uşaqların cəmiyyətimizdə mənəvi və fiziki sağlamlığının qorunması, hüquq və azadlıqlarının təmin edilməsi, uşaqların xoşbəxt böyüməsi üçün respublikamızda aparılan uğurlu dövlət siyasətindən danışıldı, həmçinin uşaqların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətimizin, eyni zamanda xalqımızın mili-mənəvi dəyərlərini və uşaq hüquqlarını təbliğ edən çıxışlar səsləndirildi.

# "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş maarifləndirici tur aksiyasında iştirak edən məktəblilərin yola salınma mərasimi olmuşdur



"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş maarifləndirici tur aksiyasında iştirak edən məktəblilərin yola salınma mərasimi olmuşdur. Şagirdlər əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad etmişdir. Mərasimdə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini Əfsanə Quliyeva vurğulamışdır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən "Ölkəmizi tanıyaq" layihəsi gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünya görüşünün formalaşdırılmasında mühüm rol oynayacaqdır. O, qeyd etmişdir ki, bu aksiya ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş naliyyətlərin dərindən öyrənilməsində, tədrisdə əldə edilən nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillardan biri olacaq və səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artıracaqdır. Çıxış edən Rayon İcra Hakimiyyətinin başçısının müavini Azər Süleymanov və valideynlər məktəblilərə səfərlə bağlı tövsiyələrini verdilər, onlara mənalı istirahət, zəngin təəssürat arzuladılar. Bildirdilər ki, bu aksiyada şagirdlər vaxtlarını səmərəli keçirtməklə yanaşı, həm də Azərbaycanın qədim tarixi-memarlıq abidələri ilə tanış olacaqlar. Şagirdlər isə onlara yaradılan bu şəraitə görə dövlət başçısına minnətdarlıq etdilər. Mərasim başa çatdıqdan sonra şagirdlər onlar üçün ayrılmış avtobusla yola düşdülər.

# "İntellektual gənclər" layihəsinə start verilmişdir

***Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Düşüncə" Gənclərin İnkişafına Dəstək" İctimai Birliyi tərəfindən icra edilən "İntellektual gənclər" layihəsinə start verilmişdir.***

30 noyabr 2016-cı il tarixdə Xocavənd rayonunda gənclər arasında milli mövzuları əhatə edən suallardan ibarət paketlə "Xəmsə" intellektual oyun növü üzrə yarış keçirilmişdir. Tədbir Xocavənd Rayon İcra Hakimiyyəti və Təhsil Şöbəsinin təşkilati dəstəyi ilə baş tutmuşdur. Tədbirdə iştirak edən Təhsil Şöbəsinin müdiri Ümidvar Məmmədov, Gənclər və İdman İdarəsinin rəisi Aslan Quliyev, Təhsil Şöbəsinin Metodkabinetin rəhbəri Laçın Əliyev, Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Süleyman Kərimov, Qaradağlı kənd tam orta məktəbin direktoru İngilis Tağıyev intellektual oyunların əhəmiyyətindən söz açaraq iştirakçılara uğurlar arzulamışdır. Layihə koordinatoru Mürsəl Behbudlu və təşkilatçı Rüfət Oruc tərəfindən start verilən turnirə mərkəz və kənd gənclərindən ibarət 8 komanda qatılmışdır. Gərgin mübarizə şəraitində baş tutan intellektual turnirdə müvafiq olaraq 6800 xalla Everest (Salakətin) komandası I, 3300 xalla




Land of Fire (Tuğ) komandası II, 1100 xalla isə Albedo (Salakətin) komandası III yerin sahibi olmuşdur.

Qaliblər diplomlarla təltif olunmuşlar.

Layihə Azərbaycançılıq ideyalarının təbliği və vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından önəmli xarakter daşıyır.

# Xocavənd qəsəbəsində baramaçılığın inkişafı ilə bağlı ting əkmə aksiyası keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırığına uyğun olaraq ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində kənd təsərrüfatının ənənəvi sahələrindən olan ipəkçiliyin bərpası prioritet vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur.



Bu məqsədlə 5 dekabr 2016-cı il tarixdə 500 ailəlik Xocavənd qəsəbəsində baramaçılığın inkişafı ilə bağlı ting əkmə aksiyası keçirilmişdir. Rayon ictimaiyyəti nümayəndələrinin qatıldığı aksiyada 2 ha əraziyə 10000 (on min) ədəd tut tingləri əkilmişdir.

# Səyyar kitabxanalar təşkil edilmişdir

Xocavənd rayon Gənclər və İdman idarəsi və Xocavənd rayon Mərkəzi kitabxanasının birgə təşkilatçılığı ilə 24-25 oktyabr 2016-cı il tarixlərdə Xocavənd rayonundan olan məcburi köçkünlərin məskunlaşdıqları Yeni Xocavənd, Xocavənd 320 ailəlik və Xocavənd 500 ailəlik qəsəbələrdə gənclər üçün səyyar kitabxanalar təşkil edildi. Gənclərə mütaliə vərdişlərinin aşılanması, kitab oxumağın üstünlüklərinin təbliği, gənclərin maraqlarına uyğun olan kitablarla tanış edilməsi məqsədi ilə təşkil olunmuş kitab sərgilərinə 184 nəfər qatılmışdır.

Keçirilən sərgilərdə rayon Gənclər və İdman idarəsi, Mərkəzi kitabxana və



Təhsil şöbəsinin əməkdaşlarının insanın mənəvi inkişafında, onun şəxsiyyət kimi formalaşmasında, mədəni səviyyəsinin yüksəlməsi və zənginləşməsində, estetik və bədii zövqünün formalaşmasında kitabın, mütaliənin əvəzsiz rolundan bəhs edən çıxışları səsləndirildi, ayrı-ayrı gənclərin fikirləri dinlənildi, mövzu ətrafında diskussiyalar aparıldı.

# Xocavənd rayonunun yaradılmasından 25 il keçib

***Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli qanununa əsasən DQMV ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında Xocavənd rayonu yaradılmışdır. Rayonda 1 şəhər (Xocavənd şəhəri - rayon məkəzi), 2 iri qəsəbə (Qırmızı Bazar və Hadrut), 81 kənd var. Olduqca əlverişli coğrafi mövqeyə və şəraitə malik Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir. Xocavənd rayonunun 1923-cu ilədək adı Aşağı Qaranlıq olmuşdur. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə bağlıdır. Məntəqə adını ərazidəki Qaranlıq dağından almışdır. Ərazidə eyniadlı çay da vardır. Ermənistan ərazisindəki Martuni rayonunun adı da 1946-cı ilədək Aşağı Qaranlıq olmuşdur. Xocavənd toponimi 2 hissədən - Xoca sözündən və vənd komponentindən ibarətdir.***

«Xoca» sözü türk dilində «müəllim, öyrətmən» anlamındadır. «Vənd» komponenti İran dillərində «uşağı, nəsli, törəməsi» mənasını daşıyır. 1988-ci ilin fevralından başlayan Qarabağ müharibəsində Xocavənd rayonu erməni qəsbkarları və onların havadarlarına qarşı inadla mübarizə aparmışdır. Xocavənd rayonunun azərbaycanlılar yaşayan kəndlərinin sakinləri kənd özünümüdafiə dəstələri yaradaraq erməni qəsbkarlarına qarşı uzun müddət mübarizə aparmış, lakin erməni və onların havadarlarının birgə qoşunlarının iştirakı ilə Xocavənd rayonunun azərbaycanlılar yaşayan 10 kəndi işğal olunmuşdur. 30.10.1991-ci ildə Tuğ və Salakətin kəndləri, 19.11.1991-ci idə Xocavənd kəndi, 09.01.1992-ci ildə Axullu kəndi, 17.02.1992-ci ildə Qaradağlı kəndi, 02.10.1992-ci ildə Muğanlı, Əmirallar və Kuropatkin kəndləri, 23.07.1993-cü ildə Günəşli kəndi və 20.08.1993-cü ildə isə Xətai kəndi erməni qəsbkarlarının işğalına məruz qalmış, 2 oktyabr 1992-ci il tarixdə isə Xocavənd rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı başa çatmışdır. İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi ermənilər tərəfindən yandırılaraq əmlakları talan edilib, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılaraq viran edilmişdir. Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə dağıdılıb. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 km avtomobil yolları, 32 körpü, 42 su anbarı və 316 km su kəməri xətti dağıdılıb, talan edilərək yararsız hala salınıb. İşğal nəticəsində vurulmuş maddi, mənəvi ziyanla barəbər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəyib. Belə ki, rayonun 1202 ha meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilib.

Xocavəndlilər 13 nəfəri qadın, 13 nəfəri uşaq olmaqla 145 nəfər şəhid verib, rayon sakinlərindən 300 nəfərdən çox insan sağlamlığını itirib və ya əlil olub, 243 uşaq valideynlərindən birini, 68 qadın həyat yoldaşını itirib. Müxtəlif dövrlərdə girov götürülmüş 110 nəfər dinc sakinlərdən 49 nəfəri əsir və girovluqda olarkən erməni terroru və vəhşiliyinin qurbanı olub, bir ailədən olan 3 uşaq hər iki valideynini itirib.

Rayonun relyefi əsasən dağlıqdır. Şərqdə və cənub şərqdə əsasən dağətəyi düzənliklərdir. Qarabağ dağ silsiləsinin cənub-şərq qolları bu rayonun ərazisində dağətəyi düzənliyə çevrilir. İqlimi çox yerdə qısa quraq keçən mülayim isti, qışı quraq keçən soyuqdur. Çayları (Xonaşençay, Köndələnçay, Qozluçay, Quruçay, Çaxmaqçay, Alıçay, Atautçay, Binəçay və s.) Kür-Araz hövzələrinə aiddir. Rayonun ərazisində əsasən şabalıdı və qəhvəyi dağ-meşə torpaqları geniş yayılmışdır. Bitki örtüyündə isə kolluqlar və enliyarpaq meşələr üstünlük təşkil edir. Xocavənd rayonunda qışı quraq keçən mülayim-isti iqlim tipi yaranır və şərqdə yayı quraq keçən mülayim-isti iqlim tipi ilə əvəz olunur. Yanvarın orta temperaturu -2°C-dən - 5°C-yə qədər, iyul da isə 20°C-dən 24°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 400-800 mm-dir. Üzümü və yaşıl mərməri ilə məşhur olan rayonda əsas təsərrüfat sahələri heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq və tərəvəzçilik olmuşdur. Rayonda arpa, buğda, qarğıdalı, soğan, kartof, yem çuğunduru və bostan-tərəvəz bitkiləri yetişdirilir. Rayon ərazisində Bağırxan, Qırmızı Bazar, Mədə Bulağı, Baba Bulağı, Ballı Bulaq və s. onlarla istirahət zonaları var. Bəşər sivilizasiyasının beşiklərindən biri olan Xocavənd bölgəsi antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu bölgədə ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, daş-qoç heykəllərə - ümumiyyətlə, nadir mədəniyyət nümunələrinə tez-tez rast gəlirik. Xocavənd ərazisində çoxlu sayda dünya və Respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri vardır. Bunlar Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənələrini göstərən abidələrdir. Qədim yaşayış məskənlərindən sayılan Xocavəndin ərazisi təbii sərvətlərlə - tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsində diametri 600 sm, hündürlüyü 25 m olan 1 ədəd 1000 və 1 ədəd 2000 il yaşlı Şərq çinarları qədim təbiət abidəsi kimi qorunurdu. Rayonun Qarakənd kəndində "Qırmızı kitab"a düşən, üçüncü dövrün relikt növü olan, orta diametri 24 sm, hündürlüyü 12 metr, yaşı 100 illik azat ağacları da mühafizə edilirdi. Rayonun Tuğ kəndinin 5 km-də V əsrə aid "Alban" kilsəsi", Tuğ kəndi ərazisində XII-XVII əsrlərə aid "Alban" kilsələri, I-V əsrlərə aid "Alban" qəbiristanlıqları, Salakətin kəndi ərazisində yerləşən "Dəmrov" ocağı, "Dağdağan" ocağı, Xocavənd kəndi ərazisində yerləşən "Cicim" ocağı, Qaradağlı kəndi ərazisində qədim "Alban" qəbiristanlığı, Bəhrəmli kəndi ərazisində yerləşən "Bəhmənli" piri, Muğanlı kəndində yerləşən "Seyid Rza" kümbəzi, Qaradağlı kəndi ərazisində "Yel" piri erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılmışdır. Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığında (Quruçay vadisində) 1,5 milyon il yaşı olan Azıx mağarası, həmçinin qədim tarixə malik Tağlar mağarası, Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid «Ritiş» qalası, Ərgünəş dağının yamacında sıldırım qayalar üzərində yerləşən «Ərgünəş» qalası, Düdükçü kəndi ətrafında XIII əsrə aid «Rzaqulu Bəy» türbəsi, Xocavənd kəndi yaxınlığında «Aşıqlı Qoşa» günbəzi, Böyük Tağlar kəndində «Alban» məbədi (1241-ci il), Tuğ kəndindəki «Qırmızı» məbəd adlı X əsrə aid tarixi memarlıq və incəsənət abidələri və s. var. Azərbaycanı qədim yaşayış məskəni kimi dünyada tanıdan abidələrdən biri, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənubi-şərqində yerləşir. Həmin rayonun Mets-Tağlar kəndindən cənubda, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən, uzunluğu 22 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan Tağlar mağarası da tarixi abidə kimi xüsusi əhəmiyyətə malikdir. Xocavənd ərazisində istifadəyə yararlı yeraltı su ehtiyatlarını qiymətləndirmək məqsədilə bir vaxtlar kompleks hidrogeoloji tədqiqatlar aparılıb. Nəticədə 9 perspektiv sahə seçilib və həmin sahələr üzrə IV dövr, Təbaşir və Yura sulu komplekslərinin 83 min kubmetr/gün həcmində yeraltı su ehtiyatları aşkarlanıb. Bundan başqa bulaq axımı moduluna əsasən 7,34 min kubmetr/gün həcmdə yeraltı su ehtiyatları hesablanıb. Beləliklə, rayonun ərazisində istifadəyə yararlı yeraltı sular 90,34 min kubmetr/gün təşkil edir.

İşğal altında olan Xocavəndin ərazisi bütövlükdə ekoloji terrora məruz qalıb. Azıx mağarasını ermənilər silah anbarına çeviriblər. Rayonun ərazisində yerləşən və ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları qırılaraq daşınıb, Xonaşen çayının kənarlarında bitən təbii meşə isə tamamilə məhv edilib. Xocavəndin Yelli Gədik sahəsində Füzuliyə gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilən ağaclar da kəsilib.

Xocavənd torpağı ölkəmizə çoxlu sayda tanınmış siyasətçilər, mədəniyyət xadimləri, rəssamlar, şairlər, yazıçılar, jurnalistlər, müğənnilər, idmançılar, sərkərdələr, igidlər bəxş etmişdir. Belə ki, Sosialist Əməyi Qəhrəmanı, Əmək veteranı Hacıyeva Əcəb Məhərrəm qızı, iqtisad elmləri doktoru, professor Cahangirov Zülfiqar Məhəmməd oğlu, iqtisad elmləri doktoru, professor Həsənov Əli Pənah oğlu, Azərbaycan Demokratik Cümhuriyyətinin (1918-1920-ci illər) parlamentinin üzvü, Lənkəran Qəzasının general-qubernatoru olmuş Cavad Bəy oğlu Məlik-Yeqanov, Azərbaycan Demokratik Cümhuriyyətinin Dəmir Yolları naziri, texnika elmləri doktoru, professor Xudadat Bəy Məlik-Aslanov, məşhur "Qarabağnamə"lərdən birinin müəllifi, tarixçi, şair Mir Mehdi Xəzani, Azərbaycan Bayrağı ordenli, müharibə veteranı Hüseynov İbad Mövsüm oğlu, III dərəcəli Əmək Şöhrəti ordenli, əmək veteranı Kazımova Roza Mənsur qızı və Qırmızı Əmək Bayrağı ordenli Hüseynov Fehruz Mahmud oğlu olmuşdur.

# 2016-cı ilin yanvar-sentyabr aylarında Xocavənd rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

2016-cı ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 43436,3 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,9 faiz az ümumi daxili məhsul istehsal edilmişdir. Azalmanın əsas səbəbi tikinti sektorunda istehsalın keçən ilin eyni dövrü ilə müqayisədə 32,0 faiz azalması olmuşdur. Əlavə dəyərin 37,7 faizi sənayedə, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 9,7 faizi tikinti, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 16,7 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,5 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 4512,5 manata bərabər olmuşdur.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2016-cı ilin yanvar-sentyabr aylarında 23,0 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənaye məhsulunun 65,7 faizi mədənçıxarma sektorunda, 28,2 faizi emal sektorunda, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda,0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 0,3 faiz, əmtəəlik qaz hasilatı isə 1,6 faiz azalmışdır. Emal sektorunda qida məhsullarının istehsalı 4,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 2,7 dəfə, geyim istehsalı 34,6 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 32,2 faiz, kağız və karton istehsalı 9,2 faiz, poliqrafiya məhsullarının istehsalı 12,7 faiz, hazır metal məmulatlarının istehsalı 18,5 faiz, kompyuter və elektron məhsulların istehsalı 14,9 faiz, elektrik avadanlıqlarının istehsalı 2,6 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 14,0 faiz, mebel istehsalı 16,3 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 53,6 faiz artmış, içkilərin istehsalı 12,2 faiz, tütün məmulatlarının istehsalı 6,9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 68,9 faiz, kimya sənayesi məhsullarının istehsalı 15,3 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,3 faiz, tikinti materiallarının istehsalı 16,2 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 1,1 faiz, maşın və avadanlıqların istehsalı isə 10,1 faiz azalmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 2,9 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,2 faiz azalmışdır. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 3,6 faiz artmış, neft sektorundaisə 0,2 faiz azalmışdır. İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 oktyabr 2016-cı il vəziyyətinə 349,2 milyon manatlıq hazır məhsul olmuşdur. Hazırda kənd təsərrüfatı bitkilərinin yığımı davam edir.

Oktyabr ayının 1-nə kimi payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) 961,6 min hektar əkin sahəsinin 959,6 min hektarı biçilmiş və həmin sahələrdən 2836,3 min ton məhsul götürülmüşdür. Orta hesabla hər hektardan əldə edilmiş məhsul 29,6 sentner təşkil etmişdir. Bundan əlavə, məhsulu toplanmış 29,6 min hektar dən üçün qarğıdalı sahəsindən 174,5 min ton məhsul götürülmüşdür. Məhsul yığımı başlanandan oktyabr ayının 1-dək sahələrdən 870,9 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 48,6 min ton çox kartof, 1150,3 min ton (22,4 min ton az) tərəvəz, 461,4 min ton (20,1 min ton az) bostan məhsulları, 538,8 min ton (5,4 min ton çox) meyvə və giləmeyvə, 98,7 min ton (13,0 min ton az) üzüm, 891,9 ton (335,4 ton çox) yaşıl çay yarpağı, 59,1 min ton (18,3 min ton çox) şəkər çuğunduru, 17,1 min ton (1,7 min ton az) dən üçün günəbaxan, 3095 ton (275 ton çox) tütün yarpağı yığılmışdır. Oktyabr ayının 3-nə sahələrdən 12,1 min ton pambıq yığılaraq tədarük müəssisələrinə təhvil verilmişdir. Oktyabrın 1-i vəziyyətinə təsərrüfatlarda 2720,8 min baş iri buynuzlu mal-qara və 8740,7 min baş qoyun və keçi mövcud olmuşdur. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal-qaranın sayı 0,6 faiz artmış, qoyun və keçilərin sayı isə eyni səviyyədə qalmışdır. 2016-cı ilin yanvar-sentyabr aylarında 341,3 min ton, yaxud əvvəlki ilin yanvar-sentyabr aylarına nisbətən 3,0 faiz çox diri çəkidə ət, 1505,6 min ton (2,5 faiz çox) süd, 1214,0 milyon ədəd (4,9 faiz çox) yumurta, 16,8 min ton (1,5 faiz çox) yun istehsal olunmuşdur. 2015-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 2,4 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 1,8 faiz, heyvandarlıq məhsulları istehsalıisə 3,1faizartmışdır. 2016-cı ilin yanvar-sentyabr aylarında əsas kapitala 10268,7 milyon manat məbləğində vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 8236,9 milyon manatı və ya 80,2 faizi məhsul istehsalı obyektlərinin, 1591,5 milyon manatı (15,5 faizi) xidmət sahələri üzrə obyektlərin, 440,3 milyon manatı (4,3 faizi) isə ümumi sahəsi 1205,5 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 4017,6 milyon manatını və ya 39,1 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 7313,0 milyon manatı və ya 71,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2016-cı ilin yanvar-sentyabr aylarında 164,4 milyon ton yük və 1406,1 milyon sərnişin daşınmışdır. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 0,9 faiz azalmış, sərnişin daşınması isə 1,9 faiz artmışdır. Yük daşınmasında müşahidə olunan gerilik dəmir yolu, dəniz və boru kəməri nəqliyyatı daşınmalarında azalmalarla bağlı olmuşdur. Yüklərin 63,8 faizi avtomobil, 27,0 faizi boru kəməri, 6,7 faizi dəmir yolu, 2,4 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 88,6 faizi avtomobil, 11,2 faizi metro, qalanları isə hava və dəniz nəqliyyatı vasitələri ilə daşınmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən 1171,4 milyon manatlıq xidmətlərin 72,5 faizi əhali sektoruna aid olmuşdur. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin yanvar-sentyabr aylarında informasiya və rabitə xidmətlərinin həcmi 5,5 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 80,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. 2016-cı ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 21085,7 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 5410,7 milyon manatlıq ödənişli xidmət göstərilmişdir.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 0,6 faiz artmış, ticarət şəbəkəsində 10503,6 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10582,1 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən 2016-cı ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 11330,3 milyon ABŞ dolları təşkil etmişdir.

Ticarət dövriyyəsinin 5790,3 milyon dollarını və ya 51,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 5540,0 milyon dollarını (48,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 250,3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2015-ci ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 12,3 faiz, o cümlədən ixrac 15,7 faiz, idxal isə 7,1 faiz azalmışdır. Ticarət dövriyyəsinin 36,9 faizi Avropa İttifaqı ölkələrinin, 14,9 faizi MDB üzvü ölkələrinin, 48,2 faizi isə digər ölkələrin payına düşmüşdür. İdxalın ümumi dəyərinin 28,0 faizi Avropa İttifaqı ölkələrinin, 23,4 faizi MDB üzvü ölkələrinin, 48,6 faizi isə digər ölkələrin payına düşmüşdür. İxracın ümumi dəyərinin 45,5 faizi Avropa İttifaqı ölkələrinin, 6,7 faizi MDB üzvü ölkələrinin, 47,8 faizi isə digər ölkələrin hesabına formalaşmışdır.

2016-cı ilin yanvar-sentyabr aylarında qeyri-neft məhsullarının ixracı 2015-ci ilin eyni dövrünə nisbətən 25,3 faiz azalaraq 742,7 milyon dollar təşkil etmişdir. 2016-cı ilin yanvar-sentyabr aylarında 2015-ci ilin müvafiq dövrünə nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 11,2 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 12,7 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 15,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 5,2 faiz artmışdır. 2016-cı ilin yanvar-sentyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz artaraq 488,7 manat təşkil etmişdir.

2016-cı ilin yanvar-sentyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin gəlirləri nominal ifadədə 8,7 faiz artaraq 32762,5 milyon manata çatmışdır. Gəlirlərin 78,6 faizi son istehlak xərclərinə, 9,2 faizi vergilərin, sığorta və üzvlük haqlarının, 2,6 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 9,6 faizi isə yığıma yönəldilmişdir. Maliyyə Nazirliyinin məlumatlarına əsasən 2016-cı ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinə 10103,1 milyon manat vəsait daxil olmuş, büdcədən 10622,2 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 519,1 milyon manatlıq kəsir ümumi daxili məhsulun 1,2 faizi səviyyəsində olmuşdur.

Mərkəzi Bankın məlumatlarına görə, 2016-cı ilin sentyabr ayının 1-nə ölkənin bank və bank olmayan kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 16839,7 milyon manat təşkil etmiş, onun 13211,3 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Kredit portfeli 2015-ci il sentyabr ayının 1-i ilə müqayisədə 16,2 faiz azalmışdır. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 9,5 faizini təşkil etmişdir. Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 2016-cı il sentyabr ayının 1-nə 7931,9 milyon manat təşkil etmişdir. Sentyabr ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,63 manata (ilin əvvəlindən 1,57 manata), 1 Avroya - 1,83 manata (1,75), 100 Rusiya rubluna - 2,54 manata (2,30) bərabər olmuşdur. 2016-cı ilin yanvar-avqust aylarında əhalinin sayı 70,1 min nəfər və ya 0,7 faiz artaraq 2016-cı il sentyabr ayının 1-i vəziyyətinə 9775,7 min nəfərə çatmışdır.

**Xocavənd Rayon İqtisadiyyatının əsas sahələri üzrə ümumi məhsul buraxılışı**

2016-sı ilin yanvar-sentyabr aylarında rayon tisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 8559,5 min manat təşkil etmişdir. Məhsul xidmətlərinin 96,1%-i istehsal sahələrinin, 3,9%-i isə xidmət sahələrinin payına düşmüşdür. 2016-cı ilin 01 oktyabr vəziyyətinə kənd təsərrüfatı sahəsində 7984,5 min manatlıq və ya ümumi məhsulun 93,3%-i, sənayedə 268,0 min manatlıq və ya ümumi məhsulun 3,1%-i, tikinti və quraşdırmada 252,0 min manat və ya ümumi məhsulun 3%-i, nəqliyyat və anbar təsərrüfatları üzrə 18,1 min manat və ya ümumi məhsulun 0,2%-i, ticarətdə 36.9 min manat və ya ümumi məhsulun 0,4%-i qədər məhsul və xidmətlər istehsal olunmuşdur.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmində 1,4%-i artım müşahidə edilmişdir.

Sənaye müəssisələri tərəfindən 2016-cı ilin 9 ayında Xocavənd rayonununda istehsal olunmuş məhsulun (işin, idmətin) həcmi faktiki qiymətlərlə 268 min manat olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,4% azalma müşahidə edilmişdir. Sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 83 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əmək haqqı 242,9 manat təşkil etmişdir.

Tikinti müəssisləri tərəfindən göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 252,0 min manat olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 16.8% azalma müşahidə edilmişdir. Tikinti müəssisələrində çalışan muzdlu işçilərin sayı 47 nəfər, onların orta aylıq nominal əmək haqqı isə 247.2 manat təşkil etmişdir.

Nəqliyyat və anbar təsərrüfatları üzrə göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 18,1 min manat olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,8% artım müşahidə edilmişdir. Nəqliyyat və anbar təsərrüfatları üzrə muzdla işləyənlərin sayı 8 nəfər, onların orta aylıq nominal əmək haqqı isə 114,3 manat təşkil etmişdir.Kənd təsərrüfatı Xocavənd Rayonunda hər il olduğu kimi 2016-cı il iyun ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə cari ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin qəti uçotu keçirilmişdir. Keçən ilin payızında suvarılan və suvarılmayan sahələrdə dən, yaşıl yem və cari ilin məhsulu üçün rayonda 6667,9 hektar sahədə əkin işləri aparılmışdır. Əkin sahələri keçən ilə nisbətən 659 hektar və ya 10,9% artmışdır. 2016-cı il 01 iyun vəziyyətinə rayon ərazisində aparılmış əkin sahəsinin 5883,9 hektar buğda, 248,5 hektar arpa, 17 hektar kartof, 86,6 hektar tərəvəz, 30 hektar ərzaq üçün bostan bitkiləri, 1,2 hektar qarğıdalı, 400,7 hektar cari və keçmiş illərdə əkilmiş çoxillik otlar olan yonca sahəsi təşkil edir. Rayonda 2016-cı ilin məhsulu üçün əkin sahələrinin 88,3% buğda, 3,6% arpa, 0,3% kartof, 1,3% tərəvəz, 0,5%-i bostan bitkiləri, 6%-i çoxillik otlar olan yonca sahəsi təşkil etmişdir. Taxılın məhsuldarlığı 30 sentner, o cümlədən buğda 30,1 sentner, arpa isə 26 sentnerden, kartof 115 sentner, tərəvəzin məhsuldarlığı isə 95 sentnerdən və 2121 ton meyvə əldə edilmişdir. Əlavə olaraq rayon ərazisində 94 hektar yaşıl yem üçün təkrar əkin işləri görülmüşdür. Hazırda rayon əhalisi tərəfindən həyətyani sahələrdə məhsul yığımı işləri davam etdirilir.

Rayonda hal-hazırda mövcud mal-qaranın sayı 2093 baş, o cümlədən inək və camışların sayı 1100 baş, qoyun və keçinin sayı 15547 baş, bütün növdən olan quşların sayı 29846 baş təşkil edir. Heyvandarlıq məhsullarının istehsalına gəldikdə isə ət diri çəkidə 271,3 ton, ondan inək əti 130 ton, qoyun əti 132,2 ton, quş əti 9,1 ton, Süd 1067,6 ton, ondan inək südü 1020 ton, qoyun südü 47,6 ton, yumurta 167 min ədəd, yun 49,5 ton istehsal edilmişdir.

Əhalinin sayı, təbii və miqrasiya hərəkəti 2016-ci il 01 oktyabr vəziyyətinə rayon əhalisinin sayı 43291 nəfərə çatmışdır ki, onlardan da 12244 nəfərini milliyətcə azərbaycanlı olan məcburi köçkün əhali təşkil edir. Əhalinin ümumi artımı 150 nəfər olmuşdur. Onlardan da 95 nəfəri təbii artım, 55 nəfəri miqrasiyanın payına düşür. Cari ilin 9 ayında doğulanlar 145 nəfər, ölənlər 50 nəfər, gələnlər 148 nəfər, gedənlər 93 nəfər, nikah 25, boşanma 10 olmuşdur.

Təhsil sahəsi üzrə Ümumtəhsil məktəblərdə 2015/2016 tədris ilində rayonda 17 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 4 ibtidai, 2 ümumi orta, 11 tam orta məktəb olmuşdur. Ümumtəhsil məktəblərində 1921 nəfər şagird təhsil alır ki, onların da 37 nəfəri (1,9%) ibtidai məktəblərin, 47 nəfəri (2,4%) ümumi orta məktəblərin, 1837 nəfər (95,7%) şagird tam orta məktəblərin payına düşür. İkinci növbədə oxuyanların sayı 278 şagird olmuşdur. Təhsil alan şagirdlərin 857 nəfərini və ya 44,6%-i qızlar təşkil edir. Şagirdlərin ümumi sayından evdə fərdi təhsil alanların sayı 24 nəfər (1,2%) olmuşdur. Şagirdlərin buraxdığı dərs günlərin sayı 945 nəfər; o cümlədən 287 nəfər xəstəliyə görə, digər səbəblərə görə isə 658 nəfər qeydə alınmışdır. Rayonun ümumtəhsil məktəblərində 578 nəfər çalışır və onların da 405 nəfərini və ya 70,1%-ni qadınlar təşkil edir. Müəllimlərin sayı 402 nəfər, onların da 302 nəfəri və ya 75,1%-i qadınlardır. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əmək haqqı 244,1 manat təşkil edir.

Mədəniyyət və Turizm sahəsi üzrərayon əhalisinə 15 klub və mədəniyyət evləri, 6 kitabxana xidmət göstərir. Rayonun Mədəniyyət və Turizm şöbəsində 166 nəfər çalışır və onların da 113 nəfərini və ya 68,0%-ni qadınlar təşkil edir. İşçilərin orta aylıq əmək haqqı 201,1 manat təşkil etmişdir.

Səhiyyə sahəsi üzrə rayon Mərkəzi xəstəxanasında ümumilikdə 278 nəfər çalışır və onların da 229 nəfərini və ya 82,4%-ni qadınlar təşkil edir. Xəstəxanada 30 həkim, xəstələrə xidmət edən kiçik tibb bacıları143 nəfər, orta tibbi heyəti 97 nəfər, laborantlar, feldşer 8 nəfər işçi heyəti çalışır. Onların orta aylıq əmək haqqı 194,7 manat təşkil edir.

Pensiya təminatı üzrə rayonda 1111 nəfər pensiyaçı qeydiyyatda olmuş və onlara təyin edilmiş aylıq pensiyaların orta məbləği 177,96 manat təşkil etmişdir. Pensiyaçıların sayından 95 nəfər işləyənlərdir. 2016-si ilin 9 ayında rayonda aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 136, o cümlədən ailə üzvlərinin sayı 571 nəfər olmaqla, bir nəfərə düşən orta aylıq müavinətin məbləği 34.96 manat olmuşdur. Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayından 139 nəfərini qadınlar, 347 nəfərini isə 18 yaşınadək uşaqlar təşkil edir.

İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə olan məlumata əsasən 2016-cı il oktyabrın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1432 nəfər olmuş, onlardan 1425 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 7 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 40,3 faizi təhsil, 5,8 faizi sənaye, 19,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 20,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,5 faizi tikinti, 0,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,3 faizi peşə, elmi və texniki fəaliyyət, 2,6 faizi kənd təsərrüfatı, 7,2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2016-cı ilin yanvar-sentyabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3.6 faiz artaraq 255,3 manat olmuşdur.

Məşğulluq və işsizlik üzrə iqtisadi fəal əhali -17412 nəfər olmaqla, məşğul əhali 16232 nəfər, işsiz əhali 1180 nəfər, iqtisadi qeyri fəal əhali 7790 nəfər təşkil edir. Əhalinin iqtisadi fəallığının səviyyəsi 69,1%, məşğulluğun səviyyəsi 93,2%, işsizliyin səviyyəsi isə 6,8% olmuşdur. İqtisadi fəal əhalinin 50,4%-ni kişilər, 49,6%-ni isə qadınlar təşkil edir.

Yeni iş yerləri üzrə 2016-cı ilin 9 ayında rayonda 61 yeni iş yeri açılmışdır. Onlardan 2 müəssisə hüquqi şəxslərdə, 4 yeni açılmış iş yeri mövcud müəssisə və təşkilatlarda olmaqla, 60 yeni iş yeri fiziki şəxslərdə olmuşdur.

**Büdcənin gəlirləri**

2016-cı ilin yanvar-sentyabr aylarında 571,3 min manat təşkil edilmişdir.

***Fərnad Tahirov,***
***Xocavənd Rayon Statistika İdarəsinin rəisi***

# Keçmişin unudulmaz həqiqətləri "Qarabağ" qəzetinin dili ilə...

## Atəşə tutulmuşdur

Sentyabrın 23-də axşam saat 7 radələrində Martuni rayonunun Qaradağlı kəndi ermənilər yaşayan Muşqabad, Qağarza, Kəndxord kəndləri tərəfindən avtomat və pulemyot silahlardan güclü atəşə tutulmuşdur. Atəş yarım saat davam etmişdir. Azacıq fasilədən sonra ermənilər yenidən silahları işə salmışlar. Gecə saat 12-yə qədər Qaradağlı kəndi düşmən atəşi altında qalmışdır. Təsərrüfata ziyan dəymiş, malqara tələf olmuşdur. İnsan tələfatı yoxdur.

## Onlardan umuruq

Xocavənddə sakinlərlə görüşüb söhbət etdik. Regionda baş verən xoşagəlməz hadisələrlə əlaqədar müxtəlif fikir mübadiləsi keçirtdik. Respublikamızın görkəmli ədəbiyyat və incəsənət xadimlərinin ünvanına ərkyana tənqidlər eşitdik. Sakinlərdən B.Babayev, Ş.İbrahimov, İ.Hüseynov və başqaları gileylənib dedilər ki, 4 ildir Dağlıq Qarabağın başının üstünü qara buludlar alıb. Burada yaşayan vətən övladları ciddi çətinliklərə düçar olublar. Bəzən elə anlar olur ki, görkəmli sənət adamlarımızın bir sözünə, bir təsəllisinə möhtac oluruq. Onlardan umuruq ki, niyə 4 ildən bəri düşmən mühasirəsində yaşayıb işləyən Xocavəndin, zülmü ərşə qalxan Qaradağlının sakinlərini yada salıb bircə dəfə buralara üz tutmayıblar. Lakin indi biz də görkəmli ədəbiyyat və incəsənət xadimlərimizi Dağlıq Qarabağda onların yolunu gözləyən camaatın arasında görmək istəyirik. Necə olur ki, Zori Balayan və başqaları vaxtaşırı Dağlıq Qarabağa gəlir, burada özlərinə lazım olan işləri görüb gedə bilirlər, bizim yazıçı və alimlərimiz, incəsənət adamlarımız isə təsadüfdən-təsadüfə olsa da bu kəndlərə gəlib-gedə bilmirlər?.. Biz onlardan çox umuruq və həmişə yollarını gözləyirik. Niyə respublikamızın rəhbərləri bura ayaq basıb, gün-güzəranımızı öz gözləri ilə görmək istəmirlər. Axı bizdə bu xalqın övladıyıq. Axı bura da Vətəndir. Vətən isə hamı üçün əziz olmalıdır!

*Qarabağ №40*
*04 oktyabr 1991-ci il*

## Qətlə yetirilmişdir

Sentyabrın 29-da Martuni rayonunun Muğanlı kənd sakini Atdıxan İsmayılov ermənilərin yaşadığı Qarakənd ərazisində quldurlar tərəfindən qətlə yetirilmişdir.

## Hiylə baş tutmadı

Erməni fitnəkarları Qaradağlıda gərginlik yaratmaqdan çəkinmir. Dağların hündür yerlərində özlərinə məskən salan, istədikləri vaxt qaradağlıları hər cür silahlardan atəşə tutan ermənilər bir an belə dinc dayanmırlar.

Sentyabrın 4-də faciələr məskəni sayılan Vərəndəlidə əkin başlamışdır. Əkin sahəsindən təxminən 1 km aralıda "Şiş dağ"ın ən hündür zirvəsində əllidən artıq silahlı erməni özlərinə məxsus zirehli hərbi maşınla göründü. Traktorçular işlə məşğul olduğundan səs-küy eşidilmirdi. Silahlı ermənilərin belə sakit hərəkətlərindən məqsəd aydın idi. Vərəndəli sahəsindəki adamları girov götürmək. Dağdan üzüaşağı 500 m məsafəni piyada enən silahlılar, qəflətən avtomat və pulemyotdan atəş açdılar. Əkin sahəsində hər tərəfi od-alov bürüdü. Güllələr sanki dolu kimi yağırdı. XTMD-nin üzvləri müdafiə üçün əllərindən gələni əsirgəmədilər. Cavab atəşləri hələ də ermənilərə təsir etmirdi. Baş serjant Akif Hacıyevin baş verən hadisə haqqında dedikləri.




- Doğrudan da elə dəhşətli anlar idi ki, ölümlə üzbəüz vuruşurduq. Bir nəfər silahlı, sahədəki o biri yoldaşlar əliyalın idi. 200 m məsafədən qarşı-qarşıya vuruşa keçdik. Biz olduğumuz sahədə kiçik təpələr var idi. Bir növ onlardan səngər kimi də istifadə edirdik. Müdafiə mövqeyini əldən verməyərək arxaya çəkilirdik. Yarım saatdan sonra XTMD-nin üzvləri Şamil, Seymur və bir neçə rus əsgəri hərbi maşınla köməyə gəldilər.

Sürücü Gülüm Rüstəmov sahədə işləyən kənd sakinlərini mərdliklə hadisə yerindən uzaqlaşdırdı. Atışma 2 saat davam etdi. Xoşbəxtlikdən tələfat olmadı.

*Lyudmila Həsənova,*
*Qaradağlı kəndi.*
*Qarabağ №41*
*11 oktyabr 1991-ci il*

## 4 nəfər yaralanmışdır

Sentyabrın 29-da saat 15.00 radələrində Martuni rayonunun Qaradağlı kəndi dörd tərəfdən atəşə tutulmuşdur. Hadisə yerinə yola düşən hərbiçilər Müşgabad kəndinin yanına çatarkən erməni quldurları tərəfindən atəşə tutulmuş, nəticədə 4 nəfər hərbiçi, o cümlədən Martuni rayonunun komendantı yaralanmışdır.

## 2 hərbiçi öldürülmüşdür

Oktyabrın 3-də saat 12-də Xocavənd ərazi RİK-in sədri Rəhman Rəhmanova məxsus xidmət maşını asfaltzavodu ərazisində atəşə tutulub. Nəticədə 2 nəfər hərbiçi öldürülmüş, 3 nəfər hərbiçi isə bədən xəsarəti almışdır.

## Girovlar dəyişdirilir

**Salakətin:** Sentyabr ayında ermənilərin kəndi atəşə tutmasına baxmayaraq, kənddə təsərrüfat işləri davam etdirilir. Artıq payızlıq arpa səpini başa çatmışdır. Ancaq sentyabrın son günündə kəndi mühasirəyə almış ermənilər başqa bir təcavüzə əl ata bilmədiklərindən girov götürülmüş Füzuli rayonunun Dövlətkarlı kənd sakini Əli Hüseynovu Yura Gevorgyanla dəyişməyə razı olmaqdan başqa ayrı əlac tapmamışlar. Çünki ilk dəfə olaraq kəndi qoruyan hərbçilər öz missiyalarını layiqincə yerinə yetirmişlər.

*Qarabağ №43*
*25 oktyabr 1991-ci il*

## Sovet əsgərləri atəş açır

Oktyabrın 27-də saat 18 radələrində erməni silahlıları Martuni rayonunun Xocavənd kəndinin "Qərvin" adlanan yerdən güclü atəşə tutmuşlar. Milislərimizin cavab atəşindən sonra hərbçilər 1 BTR-lə özlərini kəndə yetirmişlər. Kənd camaatı elə zənn ediblər ki, onlar köməyə gəlib. Lakin məqsəd tamamilə başqa imiş: hərbçilər maşından yerə tökülən kimi milislərə təzyiq göstərməyə başlayıblar. Və həm də 2 nəfər vətəndaşı zorla BTR-yə mindiriblər. Hadisə yerində olan xocavəndlilər əsgərlərin bu hərəkətlərindən hiddətlənərək girov götürülənləri geri qaytarmaq istəmişlər. Elə bu vaxt sovet əsgərləri sakinləri atəşə tutmuş, nəticədə Rübabə Novruzova, Yusif Paşayev və İlyas Paşayev ağır yaralanmışlar.

Milisin və kənd camaatının səyi nəticəsində girovlar azad edilmişdir.

Yəqin ki, bir vaxtlar ağıllı adamların "bərk ayaqda sovet ordusuna bel bağlamaq olmaz", "onlar bizi yox, erməniləri qorumağa gəliblər" və s. kimi fikirlərinə ağız büzənlər və hətta yeri gələndə el qeyrəti çəkənlərə qarşı "hücuma" keçənlər xəcalətindən girməyə yer axtarırlar.

## Kəndlər atəşə tutulur

Oktyabrın 30-da səhər saat 9-da Xocavənd kəndi yenidən müxtəlif növ hərbi silahlardan və raketlərdən atəşə tutulmuşdur. Əsgərlər bu hadisəni ancaq müşahidə etməklə kifayətlənmişlər. Həmin gün saat 17.40 radələrində bir hərbi vertolyot Martuni rayonu ərazisində enmişdir. Bundan sonra Əmirallar kəndi avtomat və pulemyot silahlardan atəşə tutulmuş, nəticədə bir neçə yaşayış evinə ziyan dəymiş, kənd orta məktəbi zədələnmiş, o cümlədən, məktəbin anbarı yanmışdır. Anbarda 30 min manatlıq avadanlıq yanıb külə dönmüşdür.

## Müharibə davam edir: təslim olmayan kəndlər

"ZİL-131" markalı hərbi maşın Xocavənd rayonunun ərazisinə tərəf istiqamət alır. Torpaq yolla irəlilədikcə ucsuz-bucaqsız çöllükdə, sol tərəfimizdə Kuropatkino, ondan bir az irəli, sağ tərəfdə Muğanlı, hər iki kənddən sonra isə Əmirallar görünür.

Ermənilərin Qarabağ iddiası başlanan gündən müharibənin hər üzünü görmüş bu kəndlər ermənilərin yüksəklikdə yerləşən 9 mövqeyinin atəş hədəfinə çevrilib. Ancaq bu kəndləri müdafiə edən Ağcabədi batalyonunun mərd döyüşçülərini nə düşmənin mövqeləri, nə də ki, qanlı döyüşlər qorxutmayıb. Kəndlər müdafiə olunur, torpaqlarımız igidlərimizin qanı ilə suvarılır. Onu da qeyd etmək istəyirəm ki, Yuxarı Qarabağda ermənilərin təcavüzü başlayan gündən işğal olunmayan 4 kənddən 3-ü yuxarıda adlarını çəkdiyimiz Kuropatkino, Muğanlı, Əmirallardır.

Batalyonun döyüşçüləri ilə ilk görüşümüz düşərgədən başlayır. Açığını deyim ki, döyüşçülər bizi görəndə təəccüblərini gizlətmədilər. Biz də bunu hiss edib səbəbini öyrəndik. Dedilər ki, indiyə kimi bu yerlərə jurnalist ayağı çox nadir hallarda dəyib.

Söhbətimiz döyüşçülərin giley-güzarından başlayır. Balıq konservinin və çörəyin ümidinə qalan əsgərlər ərzaq təminatından şikayətlənirlər. Vətənimizin müdafiəçilərinin yatacaqlarına baxanda düşünürsən ki, burda insan yata bilərmi? Torpağın üstünə salınmış döşəklərin içində heç yarım kilo da pambıq tapmaq mümkün deyil. Payıza isə az qalır. Yorğan, isti gödəkçələr isə demək olar ki, yoxdur. Dava-dərman, tibbi yardım da yox dərəcəsindədir. Bütün bunlardan əlavə, döyüşçülərin arxada qoyduqları ailələrinin vəziyyəti də olduqca acınacaqlıdır. Heç kəs bu ailələrin yaşayışı ilə maraqlanmır. Təəssüf ki, maaşlar da vaxtında verilmir. Qərargahda olanda da (məlum səbəblərə görə qərargahın yerləşdiyi yeri göstərmirik) batalyon komandirinin müavini Əbülfət Həsənov əsgərlərin giley-güzarını bir daha təsdiqlədi:

- Batalyonumuza qarşı son dərəcə biganəlik, laqeydlik var. Bir nəfər də olsun halımızı soruşan yoxdur. Nə müdafiə nazirliyi, nə də ki, Ağcabədi rəhbərliyi vəziyyətimizdən hali deyil. Buna baxmayaraq, döyüşçülərimiz qeyrətlərinə sığınıb öz mübarizələrini davam etdirir.

Bəli, bu həqiqətdir. Ağcabədi batalyonu hər yerdən təcrid olunmuş vəziyyətdə Kuropatkino, Muğanlı və Əmirallar kəndlərini müdafiə edir. Müdafiəçilərimizin isə qayğıları, problemləri ilə maraqlanan, onlara kömək etmək istəyən yeganə adam Xocavənd rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynovdur.

İnanırıq ki, Ağcabədi batalyonu döyüşçülərinin haqlı iradları həm Ağcabədi icra hakimiyyətinin, həm də Müdafiə nazirliyinin diqqətindən kənarda qalmayacaq, Yuxarı Qarabağın işğal olunmamış üç kəndinə düşmən ayağı dəyməməsi üçün ciddi tədbirlər görülür.



**Vüqar Beyləqani**
***(Vüqar Qasımov)***
***"Qızıl qələm" media mükafatı laureatı, şair-hüquqşünas***

## "Ağlama Şəhid Anası"

Param parça ürəyimi,
Dağlama, şəhid anası.
Şəhidlərim, ölməz axı
Ağlama, şəhid anası.

Oğul deməz Vətən bizə,
Qurban olum o yol izə.
Sipər olaq qoyun sizə,
Ağlama, şəhid anası.

Əsir düşmüş torpağım var,
Odu sönmüş ocağım var,
Qarabağım, öz dağım var,
Ağlama, şəhid anası.

Oğlun şəhid, qəhrəmandı,
Ruh yaşayır, ölən candı.
Millətim də ona yandı,
Ağlama, şəhid anası.

## Bayrağımız ucalar

Yurdumun ağrıları,
Yandırar məni yaxar.
Dünya dərd saxlayandır,
Yurduma tərəf axır.

Qəlbim qəm otağıdır,
Acı dərd gözləyir məni.
Yağı yurdu talayır,
Əzir, gülü-çəməni.

Bu torpağın əsgəri,
Düşmənə zəfər çalar,
Bayrağımız ucalar,
Xankənddə dalğalanar.

# Vətən oğlu, bu tarixləri unutma!

Qərbi Azərbaycan - dekabr 1988-ci il
Xankəndi - sentyabr 1988-ci il
Xocalı - 26 fevral 1992-ci il
Xocavənd - 2 oktyabr 1992-ci il
Şuşa - 8 may 1992-ci il
Laçın - 17 may 1992-ci il
Kəlbəcər - 02 aprel 1993-cü il
Ağdam - 23 iyul 1993-cü il
Füzuli - 23 avqust 1993-cü il
Cəbrayıl - 23 avqust 1993-cü il
Qubadlı - 31 avqust 1993-cü il
Zəngilan - 30 oktyabr 1993-cü il




Tuğ- 30 oktyabr 1991-ci il
Salakətin- 30 oktyabr 1991-ci il
Xətai- 15 noyabr 1991-ci il
Xocavənd- 19 noyabr 1991-ci il
Axullu- 9 yanvar 1992-ci il
Qaradağlı- 17 fevral 1992-ci il
Muğanlı- 2 oktyabr 1992-ci il
Əmirallar- 2 oktyabr 1992-ci il
Kuropatkin- 2 oktyabr 1992-ci il
Günəşli- 23 iyul 1993-cü il

***HEÇ KİM UNUDULMUR - HEÇ KİM YADDAN ÇIXMIR!***

# FƏXR ETDİYİMİZ VƏ QÜRUR DUYDUĞUMUZ ŞƏHİDLƏRİMİZ!

***Oktyabr-noyabr-dekabr aylarında Şəhid olan xocavəndlilər***



**Mirzəliyev Vahidcan İbrahm oğlu** 1 oktyabr 1949-cu il tarixdə Xocavənd rayonunun Kuropatkino kəndində anadan olub. Vahidcan Kuropatkino kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb. Vahidcan 1992-ci ilin yanvarında könüllü olaraq Milli Ordu sıralarına yazılır. Ermənilər tərəfindən 2 oktyabr 1992-ci ildə Xocavənd rayonunun işğalı günü Kuropatkino kəndinin müdafiəsi zamanı şəhid olur, məzarı Beyləqan rayonunun Dünyamalılar kəndindədir. 12 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**Babayev Səbuhi Sahib oğlu** 21 may 1978-ci ildə Xocavənd rayonunun Xocavənd kəndində anadan olub, məktəbli idi, 7-ci sinifdə oxuyurdu. Ermənilər tərəfindən atılan top mərmilərindən biri babası Fərrux Məmmədovun həyətinə düşür, bu zaman Səbuhinin babası Fərrux kişi və kiçik qardaşı yaralanır, Səbuhi isə aldığı qəlpə yarasından şəhid olur. Azyaşlı Səbuhi doğulduğu Xocavənd kəndində torpağa tapşırılmışdır.

**Allah rəhmət eləsin!**



**Axundov Müslüm Hüseyn oğlu** 17 may 1954-cü ildə Xocavənd rayonunun Əmirallar kəndində anadan olub, Xocavənd rayonunun Kuropatkino kənd könüllü özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 02 oktyabr 1992-ci ildə Kuropatkino kəndində gedən döyüş zamanı şəhid olub, Beyləqan rayonunun Dünyamalılar kənd qəbirstanlığında dəfn edilib, 5 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**İsmayılov Mirzəli Abdulla oğlu** 1919-cu ildə Qubadlı rayonunun Milanlı kəndində anadan olub, 1947-ci ildə ailə qurduqdan sona Xocavənd rayonunun Tuğ kəndinə köçüb. 16 oktyabr 1991-ci ildə erməni quldurlarının Xocavənd rayonunun Tyğ kəndində yaşayan azərbaycanlılara qarşı növbəti hücumu zamanı ahıl yaşlı Mizəli baba qətlə yetirilir. 2 oğlan 4 qız atası Mirzəli baba döğulduğu Milanlı kəndində dəfn edilir.

**Allah rəhmət eləsin!**



**Tağıyev Elsevər Teyyub oğlu** 26 may 1976-cı ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub, məktəbli idi. 18 oktyabr 1991-ci ildə milli münaqişə zəmnində həlak olub. Doğulduğu Qaradağlı kəndində torpağa tapşırılır.

**Allah rəhmət eləsin!**



**Aslanov Elçin Gəray oğlu** 1 iyul 1967-ci ildə Xocavənd rayonunun Axullu kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Elçin də Axullu kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvülərindən birinə çevrilir. 1991-ci ildə o, yeni yaranan Axullu kənd Milis Bölməsi sıralarına daxil olur. Rayonun Hərəkül, Zəmzur, Dolanlar, Ağcakənd, Bənazur, Mülküdərə kəndlərinin ermənilərdən təmizlənib, Ermənistandan məcburi qovulmuş soydaşlarımızın həmin kəndlərdə məskunlaşmasında Elçin də yaxından iştirak etmişdir. O, Cəbrayıl rayon Milis Bölməsinin bir neçə əməkdaşı ilə birlikdə Zəmzur kəndinin müdafiəsində dəfələrlə erməni quldur birləşmələrinə qarşı döyüşlərdə şəxsi sücaət göstərmişdir. Elçinin son döyüşü 1991-ci ilin noyabrın 15-də olmuşdur. Qeyri-bərabər döyüşdə Elçin 10-dan artıq erməni yaraqlısı məhv etsə də, sonda yoldaşları ilə birlikdə diri-diri yandırılmışdır. Hətda onun şəxsiyyəti əlindəki xidməti avtomat silahının nömrəsi ilə müəyyənləşdirilmişdir. O, qəhrəmanlıqla şəhid olmuşdur. Subay idi. Onun məzarı hal-hazırda işğal altında olan Axullu kəndindədir.

**Allah rəhmət eləsin!**



**Hüseynov Xandəmir Bəbir oğlu** 1932-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub, Xocavənd kənd könüllü özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşlərdə iştirak edib. Erməni quldurları 1990-cı ilin noyabr ayının 24-də Qaradağlı kəndindən 6 km aralıda üç nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Bu üç nəfərdən biri Xandəmir kişi idi. Qəddar düşmən onun sinəsinə otuzdan artıq güllə vurmuşdur. Qaradağlı kəndinin ilk şəhidi Xandəmir kişi doğulduğu kənddə torpağa tapşırıldı. Ailəli idi, 6 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**Həsənov İsa İslam oğlu** 12 sentyabr 1953-cü ildə Xocavənd rayonunun Axullu kəndində anadan olub Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman İsa da Axullu kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. 10 yanvar 1991-ci ildə Axullu kəndi işğal edildikdən sonra İsa könüllü olaraq Milli Ordu sıralarına yazılır. O, 839 saylı hərbi hissənin 1-ci rotasında tağım komandiri idi. Coxsaylı çətin tapşırıqların uğurlu yerinə yetirilməsində rəhbərlik etdiyi hərbi hissə ilə birlikdə döyüşlərdə fəal iştirak edir. İsa Həsənov 14 noyabr 1992-ci ildə Füzuli rayonunun Divanallar postunda, erməni işğalçı ordusu ilə səngər döyüşü azmanı 4 nəfər döyüş yoldaşları ilə birlikdə qəhrəmancasına şəhid oldular. Onu Füzuli şəhərindəki "Şəhidlər Xiyabanı"nda dəfn etdilər. Ailəli olub, 5 övlad atası idi.

**Allah rəhmət eləsin!**



**Süleymanov Teyyub Fərrux oğlu** 20 sentyabr 1973-ci ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olub. 16 yaşı yenicə tamam olmuşdu, məktəbli idi. 17 noyabr 1989-cu ildə məktəbdə böyük tənəffüs zamanı bir neçə erməni şagirdləri ilə əlbəyaxa döyüş zamanı aldığı bıçaq zərbələrindən şəhid olur. O, Xocavəndin ilk şəhididir. Teyyub Süleymanov doğulduğu Tuğ kəndində torpağa tapşırılmışdır.

**Allah rəhmət eləsin!**



**Nəsirov Əfqan Rəfi oğlu** 08 mart 1962-cı ildə Kəlbəcər rayonunun Məmmədsəfili kəndində anadan olub, Xocavənd rayon Xocavənd kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, kənd işğal olunandan sona Ağdam rayonunda olan Eldar Bağırov adına özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüş yolunu davam edib. 27 noyabr 1992-ci ildə Ağdam rayonunun Mərzili kəndində gedən ağır döyüş zamanı şəhidlik zirvəsinə yüksəlmişdir. Əfqan Kəlbəcər rayonunun Məmmədsəfili kəndində torpağa tapşırılmışdır. Ailəli olub, 6 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**Quliyev Vaqif Abbas oğlu** 1953-cü ildə Xocavənd rayonunun Xocavənd kəndində anadan olub, Xocavənd kənd könüllü özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 14 noyabr 1991-ci ildə Xocavənd kəndində gedən döyüş zamanı şəhid olub, Xocavənd kənd qəbirstanlığında dəfn edilib, 5 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**Fərzəliyev Fərzalı Həsənqara oğlu** 1941-cü ildə Füzuli rayonunun Qayagina kəndində anadan olub, Xocavənd kənd könüllü özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 16 noyabr 1991-ci ildə Xocavənd kəndində gedən döyüş zamanı şəhid olub, Ağcabədi rayonunun Xocavənd kənd qəbirstanlığında dəfn edilib, 7 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**Babayev Teymur Qaçay oğlu** 1937-ci ildə Xocavənd rayonunun Xocavənd kəndində anadan olub, Xocavənd kənd könüllü özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşlərdə iştirak edib, 1991-ci il noyabrın 18-dən 19-na keçən gecə Teymur kişi qızı Nazilə birlikdə Xocavənd kəndində gedən döyüş zamanı şəhid olub, nəvəsi isə yaralanıb. Ağdam rayonunun Bağmanlar kənd qəbirstanlığında dəfn edilib, 6 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**Bayramov Tağı Hüseyn oğlu** 23 oktyabr 1965-ci ildə Xocavənd rayonunun Əmirallar kəndində anadan olub, Xocavənd rayon Əmirallar kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 16 dekabr 1991-ci ildə Tağı 6 nəfərlə birlikdə onlara verilən vacib tapşırığı yerinə yetirərkən sovet hərbiçiləri tərəfindən əsir götürülərək erməni quldurlarına təhvil verilir. Ermənilər tərəfindən ağır işgəncələr verilməsinə baxmayaraq düşmən qarşısında mərdi-mərdanə dayanan bu gənc vətənpərvər 1991-ci ilin dekabrın 18-də qətlə ytirilir, şəhidlik zirvəsinə yüksəlir. Tağı Xocavənd rayon Əmirallar Ərazi İcraiyyə Komitəsində təlimatçı vəzifəsində çalışırdı. Şəhidimizin nəşi uzun danışıqlardan sonra alınaraq Əmirallar kənd qəbirstanlığında dəfn edilir. Subay idi.

**Allah rəhmət eləsin!**



**Balakişiyev Rövşən Misir oğlu** 15 dekabr 1967-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman hədsiz vətən sevgisi Rövşəni Sankt-Peterburqda olan şəraitini ataraq, onu vətənə qayıtmağa məcbur edir. Rövşən də Muğanlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Tezliklə onun cəsurluğu, qəhrəmanlığı barədə söhbətlər dolaşmağa başlayır. Bir sıra döyüş əməliyyatlarında Rövşənin göstərdiyi qəhrəmanlıqlardan sonra döyüş yoldaşları onu "Rembo" deyə çağırmağa başlayırlar. Azərbaycanın Milli Ordusu yaranandan sonra o, Muğanlı kənd özünümüdafiə batolyanın bazasında yaradılmış 161 nömrəli hərbi hissənin tərkibində öz şanlı döyüş yolunu davam etdirir. 1992-ci ilin dekabr ayının 30-da Rövşənin icərisində olduğu "UAZ" markalı avtomaşın Daşlıtəpə adlanan ərazidə minaya düşür. Güclü partlayış nəticəsində Rövşən və Miryaqub (Rövşənin döyüş yoldaşı) həlak olur, 161 saylı hərbi hissənin komandiri Əbülfət Hüseynov və onun bibisi oğlu hərbi hissənin əsgəri Ədalət Abbasov ağır yaralanırlar. Rövşən Ağcabədi rayonundakı "Şəhidlər Xiyabanı"nda dəfn edilir.

**Allah rəhmət eləsin!**

**Həsənov Asif Ağamirzə oğlu** 23 iyul 1960-cı ildə Xocavənd rayonunun Əmirallar kəndində anadan olub, məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Asif də öz dostları kimi Xocavənd rayonunun Əmirallar kənd özünümüdafiə dəstəsinə qoşulur.

*(Davamı 7-ci səhifədə)*

HEÇ KİM UNUDULMUR - HEÇ KİM YADDAN ÇIXMIR!

# FƏXR ETDİYİMİZ VƏ QÜRUR DUYDUĞUMUZ ŞƏHİDLƏRİMİZ!

## Oktyabr-noyabr-dekabr aylarında Şəhid olan xocavəndlilər

(Davamı 6-cı səhifədə)



Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. 1991-ci ildə o, yeni yaranan Əmirallar kənd Milis Bölməsi sıralarına daxil olur. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak. Qorxmazlığı və sücaəti ilə daimi fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Asifin son döyüşü 1991-ci ilin dekabrın 29-da Əmirallar kəndinin yaxınlığında "Gevorkovan" deyilən yerdə həmkəndlisi, döyüş yoldaşı Vaqif Bəhrəmovla birlikdə əsir götürülərək qətlə yetirilir. Nəşi alınmayıb. Ailəli idi. 2 övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**Bəhrəmov Vaqif Cəlil oğlu** 25 fevral 1955-cı ildə Xocavənd rayonunun Əmirallar kəndində anadan olub, məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Vaqif də öz dostları kimi Xocavənd rayonunun Əmirallar kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak. Qorxmazlığı və sücaəti ilə daimi fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Vaqifin son döyüşü 1991-ci ilin dekabrın 29-da Əmirallar kəndinin yaxınlığında "Gevorkovan" deyilən yerdə həmkəndlisi Asif Həsənovla birlikdə əsir götürülərək qətlə yetirilir. Nəşi alınmayıb. Ailəli idi. 4 övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**Süleymanov Elçin Möhübbət oğlu** 3 sentyabr 1965-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zamanı Elçin də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. 15 dekabr 1991-ci il tarixdə münaqişə zəminində həlak olur. Subay idi.

**Allah rəhmət eləsin!**

## Oktyabr-noyabr-dekabr aylarında Şəhid olan xocavəndlilər



**FƏXRİMİZ** Arif! **"52 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 76 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Bayramov Arif İbrahim oğlu** 1 oktyabr 1940-cı ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Arif kişi də öz yaşıdları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Yaşına baxmayaraq qorxmazlığı və sücaəti ilə heç də gənclərdən geri qalmır. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Arif kişinin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olur. Qeyri-bərabər döyüşdə Arif kişi Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda erməni snayperinə tuş gəlir, aldığı güllə yarasından şəhid olur. Nəşi alınmayıb. Ailəli olub, 9 övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Zahid! **"37 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 61 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Əliyev Zahid Zeynal oğlu** 1 oktyabr 1955-ci ildə Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Zahid də öz yaşıdları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Zahidin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olub. Qeyri-bərabər döyüşdə Zahid Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərib, sonda kənd sakinləri ilə birlikdə əsir düşüb, Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olub. Nəşi alınmayıb. Ailəli olub, 4 övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Elmidar! **"32 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 56 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Bayramov Elmidar Rəşid oğlu** 20 oktyabr 1960-cı ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Elmidarda da öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Elmidarın son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olub. Qeyri-bərabər döyüşdə Elmidar Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərib, sonda kənd sakinləri ilə birlikdə əsir düşüb, Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olub. Nəşi alınmayıb. Ailəli olub, iki qız övladı yadigar qalıb. Qaradağlı kəndinin müdafiəsi uğrunda Elmidarın ailəsindən 4 nəfər - bacısı Nazənim, atası Rəşid kişi, qardaşı Sultan şəhid olmuşdur.

**Allah hər birinə rəhmət eləsin!**



**FƏXRİMİZ** Sultan! **"33 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 58 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Bayramov Sultan Rəşid oğlu** 27 oktyabr 1958-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub, məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Sultanda da bir kənd sakini kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur və ona rəhbərlik edir. Kəndin müdafiəsi işinin təşkilində Sultanın rolu böyük olmuşdur. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Yeni kolxoz sədri seçilən Sultan 9 yanvar 1991-ci ildə rayonun Əmirallar kəndində Qaradağlıya gələrkən yolda pusqu quran ermənilər "UAZ" markalı avtomaşını atəşə tuturlar, bu zaman Sultan ağır yaralanır, böyük çətinliklə Ağdam rayon Mərkəzi Xəstəxanasına çatdırılsa da, onun həyatını qurtarmaq mümkün olmadı, O, şəhidlik zirvəsinə qovuşdu. Sultan doğulduğu Qaradağlı kəndində torpağa tapşırıldı. Ailəli idi. 4 övladı yadigar qaldı. Qaradağlı kəndinin müdafiəsi uğrunda Sultanın ailəsindən 4 nəfər - bacısı Nazənim, atası Rəşid kişi, qardaşı Elmirdar şəhid olmuşdur.

**Allah hər birinə rəhmət eləsin!**



**FƏXRİMİZ** Yasin! **"38 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 62 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Rəhmanov Yasin Şahmar oğlu** 17 oktyabr 1954-cü ildə Xocavənd rayonun Əmirallar kəndində anadan olub, Xocavənd rayonun Əmirallar kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb. Yasin döyüşçü dostları arasında daim cəsarəti və qorxmazlığı seçilib. 09 may 1992-ci ildə Əmirallar kəndində gedən döyüş zamanı şəhid olub, Beyləqan şəhəri "Həzrəti Cərcis Peyğəmbər" Ziyərətgahında dəfn edilib. 4 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Tağı! **"26 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 51 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

Bayramov Tağı Hüseyn oğlu 23 oktyabr 1965-ci ildə Xocavənd rayonunun Əmirallar kəndində anadan olub, Xocavənd rayon Əmirallar kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 16 dekabr 1991-ci ildə Tağı 6 nəfərlə birlikdə onlara verilən vacib tapşırığı yerinə yetirərkən sovet hərbiçiləri tərəfndən əsir götürülərək erməni quldurlarına təhvil verilir. Ermənilər tərəfindən ağır işgəncələr verilməsinə baxmayaraq düşmən qarşısında mərdi-mərdanə dayanan bu gənc vətənpərvər 1991-ci ilin dekabrın 18-də qətlə yetirilir, şəhidlik zirvəsinə yüksəlir. Tağı Xocavənd rayon Əmirallar Ərazi İcraiyyə Komitəsində təlimatçı vəzifəsində çalışırdı. Şəhidimizin nəşi uzun danışıqlardan sonra alınaraq Əmirallar kənd qəbirstanlığında dəfn edilir. Subay idi.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Ələmşad! **"18 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 43 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Vəliyev Ələmşad Eldar oğlu** 26 oktyabr 1973-cü ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olub, Tuğ kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 1 may 1991-ci ildə erməni teroru nəticəsində şəhid olub. Xocavənd rayonunun Tuğ kənd qəbirstalığında dəfn edilib. Ələmşad subay idi.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Vahidcan! **"43 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 67 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Mirzəliyev Vahidcan İbrahm oğlu** 1 oktyabr 1949-cu il tarixdə Xocavənd rayonunun Kuropatkino kəndində anadan olub, Kuropatkino kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb. Vahidcan 1992-ci ilin yanvarında könüllü olaraq Milli Ordu sıralarına yazılır. Ermənilər tərəfindən 2 oktyabr 1992-ci ildə Xocavənd rayonunun işğalı günü Kuropatkino kəndinin müdafiəsi zamanı şəhid olur, məzarı Beyləqan rayonunun Dünyamalılar kəndindədir. 12 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** İltifat! **"29 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 52 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Əzizov İltifat Yelmar oğlu** 24 oktyabr 1964-cü ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub, Qaradağlı kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşüb, 26 may 1993-cü ildə dünyasını dəyişmişdir. Bakı şəhəri Sabunçu rayonundakı qəbirstanlıqda dəfn edilib. 3 övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Yaqub! **"24 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 48 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Xoşdari Yaqub Abdulla oğlu** 23 oktyabr 1968-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Yaqub da Muğanlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Yaqub ailənin tək övladı olduğu üçün yoldaşları onu ağır döyüşlərə aparmırdılar. Lakin Yaqubun torpaq sevgisi ona qoyulmuş bu qadağanın qarşısını ala bilmir. Yaqub ordunun tərkibində kəndin müdafiəsində dəfələrlə erməni quldur birləşmələrinə qarşı döyüşlərdə şəxsi sücaət göstərmişdir. Yaqubun son döyüşü 1992-ci ilin avqustun 14-də "Gülmətəpə"də yerləşən erməni postunun ələ keçirmək olub. Həmin döyüş zamanı minaya düşərək şəhid oldu. Ailəli idi, bir övladı yadigar qalıb. Onun məzarı hal-hazırda işğal altında olan Muğanlı kəndindədir.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Zahid! **"43 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 67 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Xəlilov Zahid Əyyub oğlu** 12 noyabr 1949-cu ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Zahid də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Elmidarın son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olub. Qeyri-bərabər döyüşdə Zahid Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərib, sonda kənd sakinləri ilə birlikdə əsir düşüb, Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olub. Nəşi alınaraq Ağdam rayonun "Uzun Dərə" Şəhidlər Xiyabanında dəfn edilir. Ailəli olub, iki övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ** Səxavət! **"29 YAŞIN MÜBARƏK!" - YAŞIDLARININ BU GÜN 53 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Quliyev Səxavət Bostan oğlu** 17 noyabr 1963-cü ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Səxavət də Muğanlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. 1991-ci ildə o, yeni yaranan Muğanlı kənd Milis Bölməsi sıralarına daxil olur.

(Davamı 8-ci səhifədə)

**HEÇ KİM UNUDULMUR - HEÇ KİM YADDAN ÇIXMIR!**

# FƏXR ETDİYİMİZ VƏ QÜRUR DUYDUĞUMUZ ŞƏHİDLƏRİMİZ!

## *Oktyabr-noyabr-dekabr ayında anadan olan şəhidlərimiz*

*(Davamı 7-ci səhifədə)*

O, Muğanlı Milis Bölməsinin tərkibində kəndin müdafiəsində dəfələrlə erməni quldur birləşmələrinə qarşı döyüşlərdə şəxsi sücaət göstərir. Səxavətin son döyüşü 1992-ci ilin avqustun 16-da "Gülmətəpə"də yerləşən erməni postunun ələ keçirmək olub. Həmin döyüş zamanı minaya düşərək şəhid oldu. Ailəli idi, iki övladı yadigar qalıb. Onun məzarı hal-hazırda işğal altında olan Muğanlı kəndindədir.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Rəhim müəllim!" 56 YAŞIN MÜBARƏK!" VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Quliyev Rəhim Tapdıq oğlu** 7 noyabr 1936-cı ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuş, həmişə döyüşçülərlə birlikdə olan, onlara ağıllı məsləhətlər verən, onlarda qələbəyə inam yaradan Rəhim müəllim 1992-ci ili mayın 1-dən 2-nə keçən gecə Muğanlı kəndinə atılan güclü top atəşi nəticəsində şəhid olur. Doğulduğu Muğanlı kənd qəbirstanlığında dəfn edilib, 3 övladı qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Sərvər! "30 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 54 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Abbasov Sərvər İldırım oğlu** 10 noyabr 1962-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman ali təhsilli olan Sərvər də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. 1991-ci ildə o, yeni yaranan Qaradağlı kənd Milis Bölməsi sıralarına daxil olur. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Sərvərin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olub, qeyri-bərabər döyüşdə Sərvər Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda kənd sakinləri ilə birlikdə əsir düşür, Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olur. Nəşi alınmayıb. Ailəli olub, iki övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Qabil! "28 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 52 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Atakişiyev Qabil Atakişi oğlu** 21 noyabr 1964-cü ildə Ağdam rayonunun Cəfərbəyli kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Qabil də öz dostları kimi Xocavənd rayonunun Salakətin kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvülərindən birinə çevrilir. 1991-ci ildə o, yeni yaranan Salakətin kənd Milis Bölməsi sıralarına daxil olur. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Qalibin son döyüşü 1992-ci ilin yanvar 5-də erməni silahlılarına qarşı qeyri-bərabər döyüşdə olur. Qalib torpaqlarımızın müdafiəsində böyük hünər göstərərək, şəhidlik zirvəsinə yüksəlir. Şəhidimiz Füzuli şəhərindəki qəbirstanlıqda dəfn edilir. Ailəli olub, iki övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Nahid! "21 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 45 YAŞI TAMAM OLUR ! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Hüseynov Nahid Adil oğlu** 17 noyabr 1971-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Nahid də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Nahiidin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olur. Qeyri-bərabər döyüşdə Nahid Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda kənd sakinləri ilə birlikdə əsir düşür. Nahid Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olur. Nəşi alınmayıb. Subay idi.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Zakir! "29 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 53 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Tağıyev Zakir Gülüm oğlu** 20 noyabr 1963-cü ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Zakir də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Zakirin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olub. Qeyri-bərabər döyüşdə Zakir Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda kənd sakinləri ilə birlikdə əsir düşür. Zakir Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olur. Nəşi alınmayıb. Ailəli olub, bir qız övladı yadigar qalıb.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Zülfüqar! "40 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 65 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Hüseynov Zülfüqar Dəmir oğlu** 10 noyabr 1951-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Qaradağlı kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşmüş, 8 mart 1991-ci ildə erməni silahlı birlikləri tərəfindən qətlə yetirilmişdir. Xocavənd rayonun Qaradağlı kənd qəbirstalığında dəfn edilib. 5 övladı yadigar qalıb. Atası Dəmir kişi və oğlu Fədail (məktəbli idi) 1992-ci ilin fevralın 17-də Xocavənd rayonun Qaradağlı kəndinin erməni qəsbkarları tərəfindən işğal edən zaman şəhid oldular.

**Hər birinə Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Fazil! "35 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 60 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Vəliyev Fazil Cavad oğlu** 14 noyabr 1957-ci il tarixdə Xocavənd rayonun Qaradağlı kəndində anadan olub. Qaradağlı kənd özünümüdafiə dəstəsinin tərkibində ermənilərə qarşı döyüşmüş, 17 fevral 1992-ci ildə Qaradağlı kəndi işğal olunan gün girov düşüb, Xankəndi şəhərinə gətirilmiş və burada həbsxanada hər gün gördüyü məşəqqətli işgəncə və əzablardan 20 mart 1992-ci ildə dünyasını dəyişmişdir. Nəşi böyük çətinliklə də olsa alınaraq, Ağdam rayonun "Uzun Dərə Şəhidlər Xiyabanı"nda dəfn edilib. 5 övladı yadigar qalıb. Qardaşı Vəliyev Füzuli Cavad oğlu da 17 fevral 1992-ci il tarixdə Qaradağlı kəndi işğal olunan gün şəhidlik zirvəsinə yüksəlmişdir.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Məhəmmədəli! "10 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 38 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Balakişiyev Məhəmmədəli Qəhrəman oğlu** 10 noyabr 1978-ci ildə Xocavənd rayonunun Günəşli kəndində anadan olub. Azğınlaşmış erməni vəhşiləri gələcəyi hələ öndə olan 10 yaşlı Məhəmmədəlinin arzularını ürəyində qoydular. O, 20 sentyabr 1988-ci ildə münaqişələr zəminində həlak oldu. Onu doğulduğu Günəşli kənd qəbirstanlığında dəfn edirlər. Məktəbli idi.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Xanalı! "23 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 47 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Hüseynov Xanalı Həbib oğlu** 12 dekabr 1969-cu ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Xanalı da öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. 1991-ci ildə o, yeni yaranan Qaradağlı kənd Milis Bölməsi sıralarına daxil olur. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Sərvərin son döyüşü 1992-ci ilin fevralın 16-da Qaradağlı kəndinin işğal gününə bir gün qalmış olub, qeyri-bərabər döyüşdə Xanalı Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda döyüş yoldaşları Nobil Zeynalov və Altay Həsənovla birlikdə Qaradağlı kəndinin birinci postunda ermənilər tərəfindən güllələnərək şəhid olur. Xanalının nəşi Ağdam rayonun "Şəhidlər Xiyabanı"nda torpağa tapşırılır. Subay idi. Xanalının anası Hüseynova Rahilə Şahmar qızı 8 sentyabr 1991-ci ildə erməni terrorunun qurbanı olmuş, qardaşı məktəbli olan Hüseynov İbiş Həbib oğlu 17 fevral 1992-ci ildə kəndə ermənilərin hücumu zamanı, atası Hüseynov Həbib Həmzə oğlu da 17 fevral 1992-ci il tarixdə Qaradağlı kəndi işğal olunan gün şəhidlik zirvəsinə yüksəlmişdirlər. Bu ailənin 4 üzvü şəhid olmuşdur.

**Allah hər birinə rəhmət eləsin!**



**FƏXRİMİZ Nəbi! "21 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 45 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Quliyev Nəbi Mütalib oğlu** 22 dekabr 1971-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Nəbi də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Nəbinin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olur. Qeyri-bərabər döyüşdə Nəbi Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda kənd sakinləri ilə birlikdə əsir düşür. Nəbi Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olur. Nəşi alınmayıb. Subay idi.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Rəhim! "23 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 47 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Doluxanov Rəhim Möykəmə oğlu** 6 dekabr 1969-cu ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman Rəhim də öz dostları kimi Xocavənd rayonunun Qaradağlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Kəndin erməni quldur dəstələrindən müdafiəsində silahdaşları kimi döyüşlərdə fəal iştirak edir. Qorxmazlığı və sücaəti ilə daim fərqlənir. Dəfələrlə ölümlə üzləşsə də tale üzünə gülür, sağ qalır. Rəhimin son döyüşü 1992-ci ilin fevralın 17-də Qaradağlı kəndinin işğal günü olur. Qeyri-bərabər döyüşdə Rəhim Qaradağlı kəndinin müdafiəsində böyük hünər göstərir, sonda kənd sakinləri ilə birlikdə əsir düşür. Rəhim Qaradağlı kəndinin yaxınlığında ermənilər tərəfindən güllələnərək şəhid olur. Nəşi alınmayıb. Subay idi.

**Allah rəhmət eləsin!**



**FƏXRİMİZ Rövşən!" 25 YAŞIN MÜBARƏK" - YAŞIDLARININ BU GÜN 49 YAŞI TAMAM OLUR! VƏTƏN SƏNİNLƏ FƏXR EDİR!**

**Balakişiyev Rövşən Misir oğlu** 15 dekabr 1967-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olub. Məlum Dağlıq Qarabağ hadisələri başlanan zaman hədsiz vətən sevgisi Rövşəni Sankt-Peterburqda olan şəraitini ataraq, onu vətənə qayıtmağa məcbur edir. Rövşən də Muğanlı kənd özünümüdafiə dəstəsinə qoşulur. Çox keçmir ki, dəstənin ən fəal üzvlərindən birinə çevrilir. Tezliklə onun cəsurluğu, qəhrəmanlığı barədə söhbətlər dolaşmağa başlayır. Bir sıra döyüş əməliyyatlarında Rövşənin göstərdiyi qəhrəmanlıqlardan sonra döyüş yoldaşları onu "Rembo" deyə çağırmağa başlayırlar. Azərbaycanın Milli Ordusu yaranandan sonra o, Muğanlı kənd özünümüdafiə batolyonunun bazasında yaradılmış 161 nömrəli hərbi hissənin tərkibində öz şanlı döyüş yolunu davam etdirir. 1992-ci ilin dekabr ayının 30-da Rövşənin icərisində olduğu "UAZ" markalı avtomaşın Daşlıtəpə adlanan ərazidə minaya düşür. Güclü partlayış nəticəsində Rövşən və Miryaqub (Rövşənin döyüş yoldaşı) həlak olur, 161 saylı hərbi hissənin komandiri Əbülfət Hüseynov və onun bibisi oğlu hərbi hissənin əsgəri Ədalət Abbasov ağır yaralanırlar. Rövşən Ağcabədi rayonundakı "Şəhidlər Xiyabanı"nda dəfn edilir.

**Hər ikisinə Allah rəhmət eləsin!**

Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti
Baş redaktor: Ruslan Şirinov

VÖEN № 7900031641
Bank hesabı: H/h 8033080000 "Kapitalbank"ın Beyləqan filialı

Ünvan: Yeni Xocavənd qəsəbəsi,
Tiraj:1000, Sifariş 765

Mob: (051)720-21-71
www.Xocavend-ih.gov.az
www.Xocavendmks.com
www.Garadaghli.org

Qəzet "Xocavənd" qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş "Ekspres-Servis" mətbəəsində çap olunmuşdur.